# "MCB LİZİNQ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə

## "MCB LİZİNQ" QSC

## MÜNDƏRİCAT


| | |
|---|---|
| Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsinə dair rəhbərliyin məsuliyyəti haqqında bəyanat | 1 |
| Müstəqil auditorların hesabatı | 2-3 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Məcmu gəlir hesabatı | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 |

MALIYYƏ HESABATLARINA QEYDLƏR

| | |
|---|---|
| 1. GİRİŞ | 8 |
| 2. TƏRTİBATIN ƏSASLARI | 8 |
| 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLIŞLƏR | 9 |
| 4. ƏSAS UÇOT SİYASƏTLƏRİNİN XÜLASƏSİ | 15 |
| 5. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ | 19 |
| 6. AVANSLAR, QABAQCADAN ÖDƏNİŞLƏR VƏ DİGƏR CARİ AKTİVLƏR | 19 |
| 7. MALİYYƏ LİZİNQİ ÜZRƏ XALİS İNVESTİSİYA | 19 |
| 8. ƏMLAK VƏ AVADANLIQLAR | 20 |
| 9. QEYRİ-MADDİ AKTİVLƏR | 21 |
| 10. TƏMİNATLI VƏ DİGƏR BANK KREDİTLƏRİ | 22 |
| 11. DİGƏR CARİ ÖHDƏLİKLƏR | 22 |
| 12. NİZAMNAMƏ KAPİTALI | 23 |
| 13. TƏƏHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ | 24 |
| 14. ƏMƏLİYYAT XƏRCLƏRİ | 24 |
| 15. İNZİBATİ XƏRCLƏR | 25 |
| 16. MƏNFƏƏT VERGİSİ | 26 |
| 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ | 27 |
| 18. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR | 33 |
| 19. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR | 33 |

2-3-cü səhifələrdə göstərilmiş müstəqil auditorların hesabatında auditorların vəzifələri haqqında müddəalarla birgə oxunmalı olan aşağıdakı bəyanat "MCB Lizinq" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Şirkət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Şirkətin 31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə Şirkətin illik maliyyə durumunu, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Beynəlxalq Maliyyə Hesabatları Standardlarına ("BMHS") əsasən müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə BMHS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Şirkətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Şirkətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Şirkətin maliyyə hesabatlarının BMHS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standardlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Şirkətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

Grant Thornton 31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə Şirkətin auditoru təyin edilmişdir, və 31 Dekabr 2015-cü tamamlanmış il üzrə yenidən auditor seçilmək iqtidarında olaraq təyin edilməsinə özünü təklif etmişdir.

31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə maliyyə hesabatları Şirkətin İdarə Heyəti tərəfindən 23 yanvar 2015-ci ildə təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

| | |
|---|---|
| **Cənab Ramal Cəfərov**<br>**İdarə Heyətinin Sədri** | **Cənab Sibt-e-Hassan Taqi**<br>**Maliyyə Direktoru** |
| 23 yanvar 2015-ci il<br>Azərbaycan Respublikası, Bakı | 23 yanvar 2015-ci il<br>Azərbaycan Respublikası, Bakı |

Grant Thornton

An instinct for growth ™

**Public Accountants**
4th Floor
Landmark III Building
90A Nizami Str.
Baku AZ1010
Azerbaijan Republic
Tel. : +994 12 4936860
+994 12 4988067
E info@az.gt.com

## MÜSTƏQİL AUDİTORLARIN HESABATI

"MCB Lizinq" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarları və İdarə Heyətinə:

*Maliyyə hesabatları haqqında hesabat*

Biz "MCB Lizinq" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2014-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixə tamamlanan il üzrə məcmu gəlir hesabatı, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, eləcə də əsas uçot prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

*Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standardlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, saxtakarlıq və ya yanlışlıqlardan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların təsirinə məruz qalmayan maliyyə hesabatlarının hazırlanmasına imkan verən nəzarətə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi, müvafiq mühasibat siyasətinin seçilməsi və tətbiq edilməsi, mövcud şərtlər əsasında məqbul mühasibat təxminlərinin irəli sürülməsi.

*Auditorların məsuliyyəti*

Bizim məsuliyyətimiz, apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Tərəfimizdən aparılmış audit yoxlamasının Beynəlxalq Audit Standardlarına uyğunluğunu təsdiq edirik. Həmin standardların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün müvafiq prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də saxtakarlıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor Şirkətin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə Şirkət tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu audit rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

## MÜSTƏQİL AUDİTORLARIN HESABATI (davamı)

*Rəy*

Fikrimizcə, maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "MCB Lizinq" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2014-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standardlarına uyğun olaraq düzgün əks etdirir.

Grant Thornton
Azərbaycan Respublikası, Bakı
23 yanvar 2015-cü il

# "MCB LİZİNQ" QSC

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2014-CÜ İL TARİXİNƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2014-cü il | 31 dekabr 2013-cü il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5 | **72,724** | 151,850 |
| Avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər | 6 | **272,941** | 324,384 |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 7 | **3,558,716** | 3,176,243 |
| | | **3,904,381** | 3,652,477 |
| **Uzunmüddətli aktivlər** | | | |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 7 | **3,777,824** | 2,802,075 |
| Əmlak və avadanlıqlar | 8 | **102,252** | 88,583 |
| Qeyri-maddi aktivlər | 9 | **5,213** | - |
| Təxirə salınmış vergi aktivi | 16 | **1,228** | 18,378 |
| | | **3,886,517** | 2,909,036 |
| **Cəmi aktivlər** | | **7,790,898** | 6,561,513 |
| | | | |
| **Öhdəliklər** | | | |
| **Cari öhdəliklər** | | | |
| Təminatlı kreditlərin cari hissəsi | 10 | **-** | 2,353,500 |
| Digər bank kreditlərinin cari hissəsi | 10 | **479,742** | 562,091 |
| Digər cari öhdəliklər | 11 | **240,693** | 174,583 |
| | | **720,435** | 3,090,174 |
| **Uzunmüddətli kreditlər** | | | |
| Təminatlı kreditlər | 10 | **3,922,000** | 1,569,000 |
| Digər bank kreditləri | 10 | **1,344,715** | 314,922 |
| | | **5,266,715** | 1,883,922 |
| **Cəmi öhdəliklər** | | **5,987,150** | 4,974,096 |
| | | | |
| **O cümlədən:** | | | |
| Nizamnamə kapitalı | 12 | **1,668,842** | 1,668,842 |
| Yığılmış zərər | | **134,906** | (81,424) |
| **Cəmi kapital** | | **1,803,748** | 1,587,418 |
| | | | |
| **Cəmi öhdəliklər və kapital** | | **7,790,898** | 6,561,513 |

**Rəhbərlik adından:**

**Cənab Ramal Cəfərov**
**İdarə Heyətinin Sədri**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti MCB LEASING

**Cənab Sibt-e-Hassan Taqi**
**Maliyyə Direktoru**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

8-33-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

## "MCB LİZİNQ" QSC

### MƏCMU GƏLİR HESABATI
### 31 DEKABR 2014-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə | 31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə |
|---|---|---|---|
| Maliyyə lizinqi üzrə faiz gəliri | | **1,178,099** | 1,086,538 |
| Faiz xərci | | **(333,153)** | (314,166) |
| **Xalis faiz gəliri** | | **844,946** | 772,372 |
| Haqq, komissiya və brokerlik gəliri | | **116,230** | 267,093 |
| Xarici valyuta mübadiləsindən xalis qazanc | | **2,154** | 26,424 |
| Digər gəlir | | **733** | 6,368 |
| **Əməliyyat gəliri** | | **964,063** | 1,072,257 |
| Əməliyyat xərcləri | 14 | **(443,951)** | (436,139) |
| İnzibati xərclər | 15 | **(244,923)** | (255,132) |
| **Debitor borcları üzrə ehtiyyalardan əvvəlki mənfəət** | | **275,189** | 380,986 |
| Debitor borcları üzrə ehtiyyatlar | 6 | **(1,250)** | - |
| **Vergidən əvvəlki mənfəət** | | **273,939** | 380,986 |
| Mənfəət vergisi üzrə xərc | 16 | **(57,609)** | (75,610) |
| **Vergidən sonrakı mənfəət** | | **216,330** | 305,376 |
| Digər məcmu gəlir: | | - | - |
| **İl üzrə məcmu mənfəət** | | **216,330** | 305,376 |

**Rəhbərlik adından:**

**Cənab Ramal Cəfərov**
**İdarə Heyətinin Sədri**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

**Cənab Sibt-e-Hassan Taqi**
**Maliyyə Direktoru**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti MCB LEASING

8-33-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

# "MCB LİZİNQ" QSC

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2014-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2012-ci il tarixinə qalıq** | 1,668,842 | (386,800) | 1,282,042 |
| Büraxılmış səhmlər | - | - | - |
| İl üzrə məcmu gəlir | - | 305,376 | 305,376 |
| **31 dekabr 2013-cü il tarixinə qalıq** | **1,668,842** | **(81,424)** | **1,587,418** |
| İl üzrə məcmu gəlir | - | **216,330** | **216,330** |
| **31 dekabr 2014-cü il tarixinə qalıq** | **1,668,842** | **134,906** | **1,803,748** |

**Rəhbərlik adından:**

**Cənab Ramal Cəfərov**
**İdarə Heyətinin Sədri**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

**Cənab Sibt-e-Hassan Taqi**
**Maliyyə Direktoru**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

8-33-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

# "MCB LİZİNQ" QSC

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2014-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə | 31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət | | **273,939** | 380,986 |
| Qeyri-pul gəlir və xərcləri üzrə düzəlişlər: | | | |
| Amortizasiya xərci | 15 | **31,009** | 26,117 |
| Qeyri-maddi aktivlər | | **1,737** | - |
| Xarici valyuta ilə əməliyyatlardan xalis qazanc | | **-** | (26,424) |
| | | **306,685** | 380,679 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | | |
| Maliyyə lizinqi üzrə xalis investisiya | | **(1,358,222)** | (418,598) |
| Avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər | | **51,443** | (115,757) |
| Digər cari öhdəliklər | | **25,652** | 24,850 |
| | | **(1,281,127)** | (509,505) |
| Ödənilmiş mənfəət vergisi | | **-** | - |
| **Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaiti** | | **(974,442)** | (128,826) |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak və avadanlığın alınması | 8 | **(44,678)** | (1,935) |
| Qeyri-maddi aktivin alınması | | **(6,950)** | |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(51,628)** | (1,935) |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Təminatlı kreditlərdən əldə edilmiş vəsaitlər | | **946,944** | (38,065) |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul vəsaiti** | | **946,944** | (38,065) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | | **(79,126)** | (168,826) |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 5 | **151,850** | 320,676 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 5 | 72,724 | 151,850 |

**Rəhbərlik adından:**

**Cənab Ramal Cəfərov**
**İdarə Heyətinin Sədri**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

**Cənab Sibt-e-Hassan Taqi**
**Maliyyə Direktoru**

23 yanvar 2015-ci il
Azərbaycan Respublikası, Bakı

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti MCB LEASING

8-33-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

## 1. GİRİŞ

MCB Lizinq QSC ("Şirkət") 16 oktyabr 2009-cu ildə Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və daimi yerləşmişdir. Şirkət səhm ilə məhdudlaşan qapalı səhmdar cəmiyyət kimi Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılmışdır. Şirkət Azərbaycan Respublikası Vergilər Nazirliyində 1701045991 qeydiyyat nömrəsi ilə 15 oktyabr 2009-cu il tarixində qeydiyyatdan keçmişdir. Səhmdar kapitalda dəyişikliklərlə bağlı olaraq şirkət 28 mart 2014-cü il tarixdə öz nizamnaməsini Azərbaycan Respublikası Vergilər Nazirliyində yenidən qeydiyyatdan keçirmişdir.

Şirkətin əsas biznes fəaliyyəti Azərbaycan Respublikasında maliyyə lizinqi əməliyyatlarını həyata keçirməkdir. Şirkət müxtəlif sənaye avadanlıqlarını, tibbdə istifadə olunan avadanlıqları, ictimai nəqliyyatı və infrastruktur layihələr və digər işgüzar məqsədlər üçün lazım olan əmlakı lizinqə verir. Bundan başqa, Şirkət maşınları, yük maşınlarını və dəmiryol vaqonlarını lizinqə verir. Şirkət lizinq aktivlərini Azərbaycan Respublikasında olan təchizatçılardan və xarici təchizatçılardan alır.

Şirkətin hüquqi ünvanı: 49B Tbilisi prospekti, Bakı AZ 1065, Azərbaycan Respublikası.

MCB Bank Limited, Pakistanda fond birjasında qeydiyyata alınmış açıq səhmdar cəmiyyəti, buraxılmış nizamnamə kapitalının 95%-nə sahibdir və Şirkətin əsas təsisçisidir. 31 dekabr 2014 və 2013-cü il tarixlərinə Şirkətin nizamnamə kapitalının sahibləri aşağıdakılardır:

| | **31 dekabr 2014-cü il Təsisçi payı, %** | **31 dekabr 2013-cü il Təsisçi payı, %** |
|---|---|---|
| MCB Bank Limited (Pakistan) | **95** | 95 |
| Cənab Mohammed Hasan Metla (fiziki şəxs) | **4.94** | - |
| Cənab Cəfərov Ramal (fiziki şəxs) | **0.06** | - |
| Cənab Səfərov Namiq Rahib oğlu (fiziki şəxs) | - | 5 |
| **Cəmi** | **100** | 100 |

## 2. TƏRTİBATIN ƏSASLARI

### 2.1 Tərtibatın əsasları

Bu maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standardlarına (BMHS) əsasən, tarixi dəyər prinsipləri üzərində hər maliyyə aktivlərin, borcların, mənfəət və zərər alətlər üzrə hazırlanmışdır. Tarixi dəyərin əsasları aşağıdakı mühasibat prinsiplərində tam şəkildə göstərilmişdir.

Şirkət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun, əsasən Beynəlxalq Maliyyə Hesabatları Standardlarının (BMHS) tələblərinə cavab verən şəkildə təşkil edir. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu qanunvericiliyi əsasında hazırlanmış və düzəlişlər nəticəsində BMHS-ə uyğunlaşdırılmışdır.

### 2.2 Funksional və təqdimat valyutası

Şirkətin maliyyə hesabatlarına daxil olan maddələr Şirkətin fəaliyyət göstərdiyi ilkin iqtisadi ətraf mühitin valyutası ilə ölçülmüşdür ("funksional valyuta"). Maliyyə hesabatları Şirkətin həm funksional, həm də təqdimat valyutası olan Azərbaycan Manatı ("AZN") ilə göstərilmişdir.

## 2. TƏRTİBATIN ƏSASLARI (DAVAMI)

### 2.3. Əhəmiyyətli təxminlər və mühakimələr

Təsdiq olunmuş uçot standardlarına əsasən hesabatların hazırlanması zamanı müəyyən təxminlər etmək tələb olunur. Bu, həmçinin, Şirkətin rəhbərliyindən uçot siyasətlərinin tətbiqi zamanı öz mühakimələrinə əsaslanmasını tələb edir. Bu təxminlər və mühakimələr davamlı olaraq qiymətləndirilir və onların məqsədə uyğun olmasına nəzarət edilir. Aşağıdakı maddələrdə Şirkətin maliyyə hesabatları üçün əhəmiyyət daşıyan istiqamətlər üzrə müəyyən təxminlər və mühakimələr sadalanmışdır:

a) **Vergilər.** Şirkətin mənfəət vergisi üzrə öhdəliklərinin təxmin edilməsində rəhbərlik hazırki vergi qanunvericiliyini əsas götürmüşdür.

b) **İstifadədə olan əsas vəsaitlərin köhnəlməsi.** Köhnəlmə və ya amortizasiya metodlarının müəyyən edilməsində rəhbərlik vəsaitlərdən əldə ediləcək iqtisadi faydanın Şirkətə daxil olmasını əsas götürmüşdür.

## 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR

### a) Standardlar, şərhlər və 2014-cü ildə qüvvədə olan mövcud standardlara düzəlişlər

1 yanvar 2014-cü il tarixində və bu tarixdən sonra başlayan uçot dövrlərinə tətbiq edilən və Şirkət tərəfindən qəbul edilmiş aşağıdakı müvafiq yenidən baxılmalar və mövcud standardlara düzəlişlər Mühasibat Uçotunun Beynəlxalq Standardları Komitəsi ("BMUSK") tərəfindən buraxılmışdır:

| Standardın nömrəsi | Adı | Qüvvəyə minmə tarixi |
|---|---|---|
| 32 saylı BMUS | Maliyyə alətləri: Təqdimat – Düzəliş | 1 yanvar 2014-cü il |
| 36 saylı BMUS | Aktivlərin dəyərdən düşməsi – Düzəliş | 1 yanvar 2014-cü il |
| 39 saylı BMUS | Maliyyə alətləri: Tanınma və qiymətləndirilmə – Düzəliş | 1 yanvar 2014-cü il |

### b) Qüvvəyə hələ də minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmiş standardlar, şərhlər və mövcud standardlara düzəlişlər

Maliyyə hesabatlarının buraxılmasına icazə verilmiş tarixdə aşağıdakı yeni standardlar, şərhlər və mövcud standardlara düzəlişlər dərc edilmişdir, lakin onlar hələ də qüvvəyə minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmişdir.

| Standardın nömrəsi | Adı | Qüvvəyə minmə tarixi |
|---|---|---|
| 19 saylı BMUS | İşçilərin mükafatlandırılması – Düzəliş | 1 iyul 2014-cü il |

## 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR (DAVAMI)

**b) Qüvvəyə hələ də minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmiş standardlar, şərhlər və mövcud standardlara düzəlişlər (davamı)**

| | | |
|---|---|---|
| 16 və 38 saylı BMUS | Torpaq, tikili və avadanlıqlar və Qeyri-maddi aktivlər – Düzəliş | 1 yanvar 2016 |
| 16 və 41 saylı BMUS | Torpaq, tikili və avadanlıqlar və Kənd Təsərrüfatı – Düzəliş | 1 yanvar 2016 |
| 15 saylı BMHS | Müştərilərlə müqavilərdən gəlirlər – Yeni | 1 yanvar 2017 |
| 9 saylı BMHS | Maliyyə alətləri – Düzəliş | 1 yanvar 2018 |
| | **2010 – 2012-ci illərin illik təkmilləşdirmələri** | |
| 13 saylı BMHS | Ədalətli dəyərin ölçülməsi – Düzəliş | 1 iyul 2014-cü il |
| 16 saylı BMUS | Əsas vəsaitlər – Düzəliş | 1 iyul 2014-cü il |
| 24 saylı BMUS | Əlaqəli tərəflə bağlı açıqlamalar – Düzəliş | 1 iyul 2014-cü il |
| 38 saylı BMUS | Qeyri-maddi aktivlər – Düzəliş | 1 iyul 2014-cü il |
| | **2011 – 2013-cü illərin illik təkmilləşdirmələri** | |
| 1 saylı BMHS | BMHS-in ilk dəfə tətbiq edilməsi | 1 iyul 2014-cü il |
| 13 saylı BMHS | Ədalətli dəyərin ölçülməsi – Düzəliş | 1 iyul 2014-cü il |
| | **2012 – 2014-cü illərin illik təkmilləşdirmələri** | |
| 19 saylı BMUS | İşçilərin mükafatandırılması – Düzəliş | 1 yanvar 2016 |
| 7 saylı BMHS | Maliyyə alətləri: Açıqlama – Düzəliş | 1 yanvar 2016 |

Rəhbərlik bütün müvafiq bəyanatların bəyanatın qüvvəyə minmə tarixindən sonra başlayan ilk dövr üzrə Şirkətin uçot siyasətlərində qəbul ediləcəyini gözləyir. Qüvvəyə hələ də minməmiş müvafiq yeni standardlar, düzəlişlər və şərhlər haqqında məlumat aşağıda göstərilir. Şirkətin rəhbərliyi bu yeni və yenidən baxılmış standardların Şirkətin maliyyə hesabatlarına təsirini qiymətləndirəcək.

**19 saylı BMUS "İşçilərin mükafatlandırılması" – Düzəliş (1 yanvar 2014-cü il tarixində və bu tarixdən sonra başlayan uçot dövrünə tətbiq edilən)**

Düzəlişlərdə işçilərdən və ya üçüncü tərəflərdən xidmətlə bağlı vəsaitlərin xidmətin göstərildiyi müddətlərə necə aid edildiyinə dair tələblər izah edilir. Bundan əlavə, vəsaitlərin əlaqəli xidmətlərin göstərildiyi dövrdə xidmət xərcində azalma kimi tanına bilməsini (lakin tələb edilmir) nəzərə alaraq düzəliş vasitələrin məbləği xidmətin göstərildiyi illərin sayından asılı olmadığı halda praktiki üsullardan istifadə etməyə icazə verir.

## 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR (DAVAMI)

**b) Qüvvəyə hələ də minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmiş standardlar, şərhlər və mövcud standardlara düzəlişlər (davamı)**

**16 saylı BMUS "Əsas vəsaitlər"- Düzəliş və 38 saylı BMUS "Qeyri-maddi aktivlər"- Düzəliş (1 yanvar 2016-cı il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

16 saylı BMUS "Əsas vəsaitlər" və 38 saylı BMUS "Qeyri-maddi aktivlər"ə edilmiş düzəlişlər:

- əsas vəsaitlərə uyğun olmayan aktivlərin fəaliyyətindən yaranan gəlirlərə əsaslanan köhnəlmə metodunu aydınlaşdırmaq
- qeyri-maddi aktivdən istifadəni özünə daxil edən fəaliyyətdən yaranan gəlirə əsaslanan amortizasiya metodunun qeyri-müvafiq olduğunu və yalnız qeyri-maddi aktivin gəlir mənbəyi kimi ifadə edildiyi yerdə və qeyri-maddi aktivin iqtisadi mənfəətindən istifadənin yüksək səviyyədə müqayisə edilə biləcəyini göstərən məhdud vəziyyətlərdə bunun öhdəsindən gəlinməsinin mümkün olduğunu təkzib edən fərziyyənin təqdim edilməsi; və
- aktivdyənin təqdim edilməsi; və özünə daxil en mümkün olduğunu təkzib edən i aktivin iqtisadi mən tutan göstərişin əlavə edilməsi aktivin texnoloji və ya kommersiya baxımından köhnəlməsini göstərə bilər və bu da öz növbəsində aktivə daxil edilən gələcək iqtisadi mənfəətlərin azalmasını əks etdirə bilər.

**16 saylı BMUS "Əsas vəsaitlər"- Düzəliş və 41 saylı BMUS "Kənd təsərrüfatı" – Düzəliş (1 yanvar 2016-cı il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

16 saylı BMUS - "Əmlak, Qurğu və Avadanlıq" və 41 saylı BMUS - "Kənd təsərrüfatı" na edilən düzəlişlər 41 saylı BMUS əvəzinə 16 saylı BMUS-a uyğun olaraq veksel sahibinin qurğusunu müəyyən edir və əmlak, qurğu və avadanlıq kimi nəzərə alınmalı olan veksel sahibinin qurğusunun tərifinə uyğun gələn bioloji aktivləri tələb edir. Düzəliş edilən zaman, veksel sahibinin qurğuları ya xərc modelindən, ya da 16 saylı BMUS-nin 16-da göstərilən təkrar qiymətləndirmə modelindən istifadə etməklə ölçülə bilər.

Düzəlişlərin ilkin tətbiqlərində müəssisələrə təqdim edilmiş erkən dövrün başlanğıcında daşıyıcı avadanlıq maddələrinin ədalətli dəyərinin onların fərz edilən ilkin dəyəri kimi istifadə olunmasına icaze verilirdi. Əvvəlki xalis balans dəyəri ilə ədalətli dəyər arasındakı hər hansı fərq retrospektiv tətbiqin nəticəsi olaraq təqdim edilmiş erkən dövrün başlanğıcında dövrün əvvəlinə olan bölüşdürülməmiş mənfəətdə tanınmalıdır.

Daşıyıcı avadanlıqlar üzrə artan istehsaı 41 saylı BMUS-a uyğun olaraq uçota alınmağa davam edir. Daşıyıcı avadanlıqlarla bağlı dövlət ssubsidiyaları ilə əlaqədar olaraq 20 saylı BMUS " Dövlət ssubsidiyalarının uçotu və Dövlət yardımı haqqınd məlumatın açıqlanması" tətbiq ediləcək.

## 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR (DAVAMI)

**b) Qüvvəyə hələ də minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmiş standardlar, şərhlər və mövcud standardlara düzəlişlər (davamı)**

**15 saylı BMHS "Müştərilərlə müqavilələrdən gəlirlər" – Yeni (1 yanvar 2017-ci il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

15 saylı BMHS müştərilərlə bağlanmış müqavilələrdən yaranan gəlirlərin uçota alınmasında istifadə etmək üçün müəssisələr üçün hərtərəfli beş-addım modelini yaradır. O aşağıdakı gəlir standardlarını və onlara dair şərhləri əvəz edəcək:

- 18 saylı BMUS *Gəlir;*
- 11 saylı BMUS *Tikinti Müqavilələri;*
- 13 saylı BMHŞK *Müştərilərin Loyalti Proqramı;*
- 15 saylı BMHŞK *Daşınmaz Əmlak Tikintisi üzrə Müqavilələr;*
- 18 saylı BMHŞK *Müştərilərdən Aktivlərin Köçürülməsi; və*
- 31 saylı SŞK *Reklam xidmətləri cəlb olunmaqla Gəlir-Barter əməliyyatları.*

Modeldəki beş addım aşağıdakılardır:

- Müştəri ilə müqaviləni müəyyənləşdirmək;
- Müqavilədə icra öhdəliklərini müəyyənləşdirmək;
- Əməliyyat qiymətini müəyyən etmək;
- Müqavilədə əməliyyat qiymətinin icra öhdəliklərinə ayrılması; və
- Müəssisə icra öhdəliyindən qane olan zaman gəliri tanımaq.

Rəhbərlik həmçinin tanınmış gəlir, işin gedişi zamanı yaranmış dəyişikliklərin uçota alınması, müqavilənin bağlanması və yerinə yetirilmə xərcləri və digər əlaqəli məsələlərlə bağlı mövzularla təmin olunub. Eyni zamanda gəlirlə bağlı yeni açıqlamalar da təqdim edilib.

**9 saylı BMHS "Maliyyə Alətləri" – Düzəliş (1 yanvar 2018-ci il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

1 iyul 2014-cü ildə BMUSK maliyyə alətləri layihələrinin bütün mərhələlərinə tasir edən və 39 saylı BMUS "Maliyyə Alətləri: Tanınma və Qiymətləndirmə" və eyni zamanda özünün bütün əvvəlki modellerini əvəz edən 9 saylı BMHS "Maliyyə Alətləri" standardının sonuncu modelini buraxdı. Standard təsnifləşdirmə və ölçülmə, dəyərdən düşmə və hecing uçotuna dair yeni tələbləri təqdim edir.

**Təsnifləşdirmə və Qiymətləndirmə**

Maliyyə aktivləri saxlanıldığı biznes modeli və onların müqavilədən yaranan pul vəsaitlərinin xüsusiyyətlərinə istinadən təsnif edilir. 9 saylı BMHS-in 2014-cü il modelində müəyyən borc eyni qayda ilə 39 saylı BMUS altında təsnifləşdirilir, lakin müəssisənin öz kredit riskinin ölçülməsi üçün tətbiq olunan tələblərdə fərqlər var.

**Dəyərdən düşmə**

9 saylı BMHS-in 2004-cü il modeli maliyyə aktivlərinin dəyərdən düşməsinin ölçülməsi üçün "gözlənilən kredit zərəri" modelinin təqdim edir, belə ki kredit zərəri tanınmamışdan əvvəl baş vermiş kredit hadisələri əhəmiyyətli deyil.

## 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR (DAVAMI)

**b) Qüvvəyə hələ də minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmiş standardlar, şərhlər və mövcud standardlara düzəlişlər (davamı)**

**Hecinq uçotu**

Qurumların maliyyə və qeyri-maliyyə risk növlərindən sığortalanan zaman riskin idarə edilməsi fəaliyyətlərini necə yerinə yetirdiklərini yaxından bilmək üçün işlənib hazırlanmış yeni hedcinq uçotu modelinin tətbiq edilməsi.

**Tanınmanın dayandırılması**

Maliyyə aktivlərinin və öhdəliklərinin tanınmasının dayandırılması üçün tələblər 39 saylı BMUS-dan irəli gəlir.

Erkən tətbiqetməyə icazə ilə 9 saylı BMHS 1 yanvar 2018-ci il və ya bu tarixın sonra başlayan hesabat dövrü üçün qüvvəyə minir. Retrospektiv tətbiqlər tələb olunur, lakin müqayisəli məlumatlar məcburi deyil. Əgər ilkin tətbiq tarixi 1 fevral 2015-ci ildən avvəldirsə 9 saylı BMHS-in (2009, 2010, 2013) əvvəlki modelinin erkən tətbiqinə icazə verilir.

Rəhbərlik bu düzəliş edilmiş standardın Şirkətin maliyyə hesabatlarına təsirini daha sonra qiymətləndirə bilər.

## 2010 – 2012-Cİ İLLƏRİN İLLİK TƏKMİLLƏŞDİRİLMƏLƏRİ

**13 saylı BMHS "Ədalətli Dəyərin Ölçülməsi – Düzəliş" (1 iyul 2014-cü il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

Düzəlişlərdə 13 saylı MHBS-nin və "Maliyyə alətləri: Tanınma və Qiymətləndirmə" adlı 39 saylı BMUS və "Maliyyə alətləri" adlı 9 saylı MHBS-nə sonrakı düzəlişlərin buraxılması diskontlaşmanın təsiri əhəmiyyətsiz olduğu halda hesab fakturada diskontlaşma olmadan müəyyən edilmiş faiz dərəcəsi olmayan məbləğ qısa-müddətli debitor borcları və kreditor borclarını qiymətləndirmək qabiliyyətini ləğv etmədiyini izah edir.

**16 saylı BMUS "Torpaq, Tikili və Avadanlıq" – Düzəliş (1 iyul 2014-cü il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

Düzəlişlər əsas vəsaitlərin maddəsi təkrar qiymətləndirildikdə məcmu dəyərsizləşmənin uçotunda qəbul edilmiş uyğunsuzluqları ləğv edir. Düzəliş edilmiş tələblərdə ümumi balans dəyərində aktivin balans dəyərinin yenidən qiymətləndirilməsinə uyğun gələn tərzdə düzəliş edilməsijudni və məcmu dəyərzisləşmənin zərərlərini nəzərə aldıqdan sonra ümumi balans dəyəri və balans dəyəri arasında fərqin olmasını izah edir.

Müəssisə düzəlişləri ilk dəfə tətbiq edildiyi illik dövrdə və birbaşa əvvəlcədən gələn illik dövrdə tanınan bütün yenidən qiymətləndirilmələrə tətbiq etməlidirlər. Müəssisədən ilkin dövrləri yenidən təqdim etmək tələb olunmur, amma ilkin dövrləri yenidən tətbiq edə bilər.

## 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR (DAVAMI)

**b) Qüvvəyə hələ də minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmiş standardlar, şərhlər və mövcud standardlara düzəlişlər (davamı)**

**24 saylı BMUS "Əlaqəli tərəflə bağlı açıqlamalar" – Düzəliş (1 iyul 2014-cü il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

Bu düzəlişlərdə hesabat verən müəssisəyə ali rəhbər heyətinə xidmətləri göstərən rəhbər müəssisənin hesabat verən müəssisənin əlaqəli tərəfi olmasını izah edir. Nəticədə, hesabat verən müəssisə əsas rəhbər heyətə xidmətləri göstərdiyinə görə rəhbər müəssisəyə xidmət üçün ödənilmiş və ya ödəniləcək məbləğləri əlaqəli tərəflə əməliyyatlar kimi açıqlamalıdır. Lakin, bu kimi kompensasiyanın komponentlərinin açıqlanması tələb olunmur.

**38 saylı BMUS "Qeyri-maddi Aktivlər" – Düzəliş (1 iyul 2014-cü il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

Düzəlişlər qeyri-maddi aktivləri maddəsi təkrar qiymətləndirildikdə məcmu dəyərsizləşmənin uçotunda qəbul edilmiş uyğunsuzluqları ləğv edir. Düzəliş edilmiş tələblərdə ümumi balans dəyərində qeyri- maddi aktivin balans dəyərinin yenidən qiymətləndirilməsinə uyğun gələn tərzdə düzəliş edilməsini və məcmu dəyərsizləşmə zərərlərini nəzərə aldıqdan sonra ümumi balans dəyəri və balans dəyəri arasında fərqin olmasını izah edir.

Müəssisə düzəlişləri ilk dəfə tətbiq edildiyi illik dövrdə və birbaşa əvvəlcədən gələn illik dövrdə tanınan bütün yenidən qiymətləndirilmələrə tətbiq etməlidirlər. Müəssisədən ilkin dövrləri yenidən təqdim etmək tələb olunmur, amma ilkin dövrləri yenidən tətbiq edə bilər.

### 2011 – 2013-CÜ İLLƏRİN İLLİK TƏKMİLLƏŞDİRİLMƏLƏRİ

**1 saylı BMHS "BMHS-in il dəfə tətbiq edilməsi" - Düzəliş (1 iyul 2014-cü il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

Düzəlişlər BMHS-i ilk dəfə tətbiq edənlərə əgər BMHS erkən tətbiqə icazə verirsə hələ ki məcburi olmayan yeni BMHS-ləri tətbiq etməyə icazə verir (lakin tələb olunmur). Əgər müəssisə yeni BMHS-I erkən tətbiq etmək istəyirsə o zaman 1 saylı BMHS-də başqa istisna hallar nəzərdə tutulmayıbsa müəssisə yeni BMHS-i retrospektiv olaraq bütün hesabat dövlərinə tətbiq etməlidir. Nəticədə bu yeni BMHS-in hər hansı keçid müddəaları BMHS-i erkən tətbiq etməyi seçmiş ilk təfə tətbiq edənlərə tətbiq edilmir.

**13 saylı BMHS "Ədalətli Dəyərin Ölçülməsi – Düzəliş" (1 iyul 2014-cü il tarixində və bu tarixdən sonra başlayan dövrə tətbiq edilən)**

Düzəlişdə maliyyə aktivləri və maliyyə öhdəliklər qrupunun ədalətli dəyərinin xalis əsasla qiymətləndirilməsi üçün portfel seçiminin əhatə dairəsində düzəlişlərin edilməsini izah edir. Bu düzəlişlərin edilməsi "Maliyyə alətləri: Tanınma və qiymətləndirmə" adlı 39 saylı BMUS-a və ya "Maliyyə alətləri" adlı 9 saylı BMHS-nin əhatə dairəsində olan və bu standardlara uyğun olaraq uçota alınan bütün müqavilələrin daxil etməsi ilə izah edilir, baxmayaraq ki, bu müqavilələr "Maliyyə alətləri: Təqdimat"adlı 32 saylı BMUS-un daxilində maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin təriflərini təmin etmir.

## 3. STANDARDLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR (DAVAMI)

**b) Qüvvəyə hələ də minməmiş və Şirkət tərəfindən erkən qəbul edilməmiş standardlar, şərhlər və mövcud standardlara düzəlişlər (davamı)**

**2012 – 2014-CÜ İLLƏRİN İLLİK TƏKMİLLƏŞDİRİLMƏLƏRİ**

**19 saylı BMUS "İşçilərin mükafatlandırılası" (1 yanvar 2016-cı il tarixində və bu tarixdən sonra başlayan uçot dövrünə tətbiq edilən)**

Düzəliş həmçinin məşğulluq müddəti bitdikdən sonra müavinətlər üzrə endirim dərəcəsinin hesablanmasında istifadə edilən yüksək keyfiyyətli korporativ istiqrazların müavinətlərin ödənildiyi eyni valyutada ifadə edilməli olmalarını aydınlaşdırır.

**7 saylı BMHS "Maliyyə alətləri: Açıqlama" – Düzəliş (1 yanvar 2016-cı il tarixində və bu tarixdən sonra başlayan uçot dövrünə tətbiq edilən)**

Düzəliş, xidmət müqaviləsinin tələb edilən informasiya açıqlamalarının müəyyən edilməsi məqsədilə əsas kapitalı əhatə edib-etmədiyini aydınlaşdırmaq üçün əlavə göstərişləri təmin edir. O həmçinin qısaldılmış aralıq maliyyə hesabatlarında informasiyanın açıqlanması ilə bağlı düzəlişlərin 7 saylı BMHS-yə uyğun gəlib-gəlmədiyini aydınlaşdırır.

## 4. ƏSAS UÇOT SİYASƏTLƏRİNİN XÜLASƏSİ

### 4.1 Maliyyə alətlərinin ilkin tanınma və ölçülmə qaydaları

Şirkət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliklərini öz maliyyə vəziyyəti haqqında hesabatında tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı əməliyyat hesablaşma günü tanınır. Sonradan əməliyyat və hesablaşma tarixləri arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldə edilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Maliyyə aktivləri və öhdəlikləri, ədalətli dəyər, ədalətli dəyəri mənfəət və ya zərərdə əks olunmayan maliyyə aktivləri və ya maliyyə öhdəlikləri üçün, maliyyə aktivi və ya maliyyə öhdəliyinin alınması və ya buraxılması ilə birbaşa bağlı əməliyyat xərcləri əlavə olunmaqla tanınır.

Sonrakı ölçmə məqsədləri üçün maliyyə aktivləri ilkin tanınma zamanı kreditlər və debitor borcları kimi təsnif edilir və dəyərzişləmə üçün ehtiyatı çıxmaqla effektiv faiz dərəcəsindən istifadə edərək amortizasiya edilmiş dəyərlə ölçülür. Diskontlaşmanın təsiri əhəmiyyətsiz olduğu halda diskontlaşma edilmir.

*(a) Lizinqin tanınması və ölçülməsi*
Lizinqin uçotu 17 №-li BMUS və 4 №-li BMHŞK-ya əsasən aparılır. Aktiv maliyyə lizinqinə verildiyi halda, lizinq ödənişlərinin diskontlaşdırılmış dəyəri debitor borcu kimi tanınır.

## 4. ƏSAS UÇOT SİYASƏTLƏRİNİN XÜLASƏSİ (DAVAMI)

### 4.1 Maliyyə alətlərinin ilkin tanınma və ölçülmə qaydaları (davamı)

*(b) Lizinqin başlanğıcı*
Lizinqin başlanğıcı kimi lizinq müqaviləsinin tarixi və ya təəhhüd tarixindən ən tez olanı hesab edilir. Bu izahın məqsədləri üçün təəhhüd yazılı, əməliyyata daxil olan tərəflər tərəfindən imzalı olmalı və xüsusilə, əməliyyatın əsas şərtləri əksini tapmış olmalıdır.

*(c) Lizinq müddətinin başlanması*
Lizinq müddətinin başlanması tarixi lizinq alanın lizinq predmeti üzərində istifadə hüququnu əldə etdiyi tarix hesab edilir. Bu, lizinqin ilkin tanındığı tarixdir.

*(d) Lizinq üzrə debitor borcların dəyərdən düşməsi*
Şirkətin lizinqin ilkin müqavilə şərtləri üzrə olan borclarını toplaya bilməməsi barədə obyektiv sübut olarsa, gecikmə üzrə ehtiyat yaradılır. Ehtiyatın məbləği lizinqin şübhəli hesab edildiyi zaman balans dəyəri ilə lizinqin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış lizinq aktivinin satışından yaranan gözlənilən daxilolmaların hazırki dəyəri olmaqla, bərpa edilə bilən məbləğ arasındakı fərqdir.

Ehtiyat məbləği həmçinin, hesabat tarixində lizinq portfelinin komponentlərində mümkün zərərlərin mövcud olduğu barədə obyektiv sübut olduğu halda həmin zərərləri əhatə edir. Onlar lizinqə aid olan gələcək səciyyəvi zərərlər və hər bir komponentdə olan itkilərin ilkin nümunələri və müştərinin fəaliyyət göstərdiyi iqtisadi mühit əsasında qiymətləndirilmişdir.

### 4.2 Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyəri ilə əks etdirilir. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentləri nağd pul vəsaitlərindən, tələbli depozitlərdən, digər qısamüddətli və məlum olan pul vəsaitinə çevrilməyə hazır olan yüksək likvildi investisiyalardan ibarətdir.

### 4.3 Əmlak və avadanlıq

Əmlak və avadanlıq ilkin dəyərindən yığılmış amortizasiya və yığılmış qiymətdən düşmə zərərləri (əgər varsa) çıxılmaqla nəzərə alınır. Son qalıq dəyəri (əgər varsa) nəzərə alınmaqla, aşağıdakı dərəcələrə uyğun olaraq düz xətli amortizasiya metodu istifadə etməklə hesablanan nəqliyyat və kompyuter avadanlıqlarından başqa, bütün digər əməliyyat fəaliyyətində olan maddi aktivlər üçün amortizasiya azalan qalıq metodu ilə hesablanır. Hər bir hesabat dövrünün sonunda əsas vəsaitlərin qalıq dəyərlərinə, istifadə müddətlərinə və köhnəlmənin hesablanma üsullarına yenidən baxılır, lazım gəldikdə düzəlişlər edilir.

Əmlak və avadanlığın amortizasiyası aşağıdakı dərəcələrlə hesablanır:

| | |
|---|---|
| Mebel | 10% |
| Kompyuter və ofis avadanlığı | 20% |
| Nəqliyyat vasitələri | 20% |
| Digər əsas vəsaitlər | 20% |

Əmlak və avadanlığın balans dəyərinə hər bir hesabat tarixində bərpa edilə bilən məbləğlərinin artıq qeyd edilib-edilməməsini təyin etmək üçün yenidən baxılır və balans dəyərinin qiymətləndirilmiş bərpa edilə bilən məbləğindən artıq olduğu halda, aktivlər öz bərpa edilə bilən

## 4. ƏSAS UÇOT SİYASƏTLƏRİNİN XÜLASƏSİ (DAVAMI)

### 4.3 Əmlak və avadanlıq (davamı)

məbləğinə qədər aşağı salınır. Qiymətdən düşmə uyğun hesabat dövründə tanınır və digər inzibati və ya əməliyyat xərclərinə daxil edilir. Qiymətdən düşmə zərərinin tanınmasından sonra əmlak və avadanlığın amortizasiya xərci aktivlərin yenidən hesablanmış, gələcək dövrlərdə balans dəyərindən qalıq dəyərini (əgər varsa) çıxılmaqla, sistematik əsasda faydalı istifadə müddəti ərzində təyin etmək üçün düzəldilmişdir.

Daxilolmalar üzrə amortizasiya aktivin istifadəyə verildiyi aydan hesablanır, aktivin silindiyi ayda isə amortizasiya hesablanmır. Əmlak və avadanlığın satışından mənfəət və ya zərərlər cari mənfəət və zərər hesabına daxil edilir, istisna olaraq, yenidən qiymətləndirmə artımı birbaşa bölüşdürülməmiş mənfəətə köçürülür. Müvafiq hallarda, aktiv ilə bağlı iqtisadi faydaların Şirkətə daxil olacağı və aktivin dəyəri etibarlı ölçülə bilinəcəyi ehtimal olunduqda, sonrakı xərclər ayrıca aktivin balans dəyərinə əlavə olunur və ya ayrıca aktiv kimi tanınır. Bütün digər təmir və saxlanma xərcləri mənfəət və zərərə silinir.

### 4.4 Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər ilk olaraq ilkin dəyərdə tanınır. Qeyri-maddi aktivlər hər hansı amortizasiya və dəyərdən düşmələr çıxıldıqdan sonra uçota alınır. Aşağıdakı düzxətli amortizasiya metodundan istifadə etməklə qeyri-madi aktivin dəyəri son qalıq dəyərinə qədər azaldılır:

| | |
|---|---|
| Kompüter proqram təminatı | 33% |

### 4.5 Xarici valyuta əməliyyatları

Xarici valyuta ilə ifadə olunan müəyyən edilmiş pul aktiv və öhdəlikləri hesabat tarixindəki alqı-satqı məzənnəsinə uyğun şəkildə Azərbaycan Manatına konvertasiya edilir. Xarici valyuta ilə aparılan əməliyyatlar üzrə aktiv və öhdəliklər hesabat tarixinə mövcud olan məzənnə əsasında AZN ilə ifadə edilirş əməliyyatın yerinə yetirildiyi günə qüvvədə olan valyuta məzənnəsi ilə hesablanır. Bu əməliyyatlardan yaranan gəlir və zərər mənfəət və zərər hesabına daxil edilir..

Şirkət ilin sonuna maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| 31 dekabr 2014-cü il | 31 dekabr 2013-cü il |
|---|---|
| USD 1 = AZN 0.7844 | USD 1 = AZN 0.7845 |
| EUR 1 = AZN 0.9522 | EUR 1 = AZN 1.0780 |
| GBP 1 = AZN 1.2173 | GBP 1 = AZN 1.2927 |
| RUR 1 = AZN 0.0133 | RUR 1 = AZN 0.0241 |

### 4.6 Gəlirin tanınması

Lizinq gəlirlərinin tanınmasında maliyyə üsulu istifadə olunur. Bu üsulla gələcəkdə qazanılacaq lizinq gəliri (cəmi lizinq debitorlarının artıq məbləği və lizinq aktivlərinin dəyərinin hesablanmış qalıq dəyəri) təxirə salınır və lizinq müddəti üzrə sabit faiz dərəcəsini tətbiq etməklə gəlirə aid edilir. Lizinq müqavilələrinə xitam verildikdə yaranan qazanclar/itkilər realizə edildiyi halda mənfəətə aid edilir.

## 4. ƏSAS UÇOT SİYASƏTLƏRİNİN XÜLASƏSİ (DAVAMI)

### 4.7 Avans ödənişləri

Avans ödənişləri, nominal dəyərlə hesabatlarda göstərilir.

### 4.8 Təminatlı kreditlər

Təminatlı kreditlər çəkilmiş əməliyyat xərcləri çıxılmaqla, ədalətli dəyəri ilə tanınır. Sonrakı dövrlərdə effektiv faiz dərəcəsi metodu istifadə edilməklə, təminatlı kreditlər amortizasiya edilmiş dəyərində göstərilir; daxilolmaların (əməliyyat dəyəri çıxılmaqla) ədalətli dəyəri və ödənişin məbləği arasındakı hər hansı fərq təminatlı kreditin müddəti ərzində faiz xərci kimi tanınır.

Effektiv faiz dərəcəsi metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi metodudur.

### 4.9 Ehtiyatlar

Ehtiyatlar, Şirkətin keçmiş hadisələrin nəticəsində mövcud olan hüquqi və ya konstruktiv öhdəliyə malik olması, bu öhdəliklə bağlı iqtisadi resursların Şirkət tərəfindən xərclənilməsi labüd olduğu və öhdəliyin dəyərinin etibarlı bir şəkildə dəyərləndirilməsi mümkün olduğu hallarda maliyyə hesabatlarında tanınır.

### 4.10 Nizamnamə kapitalı

Nizamnamə kapitalına edilən əlavələr maya dəyəri ilə tanınır. Adi səhmlər üzrə dividendlər kapitalda, elan edildiyi dövr üçün kapitalı azaldan maddə kimi təqdim edilir. Hesabat dövründən sonrakı dövrdə elan edilən dividendlər isə, BMUS 10 "Hesabat dövründən sonra baş vermiş hadisələr" standardına uyğun olaraq hesabat dövründən sonrakı dövrdə baş vermiş hadisələr kimi təqdim edilir.

### 4.11 Cari və təxirə salınmış mənfəət vergisi

Dövr üzrə vergi xərci, cari və təxirə salınmış vergidən ibarətdir. Vergi, digər məcmu gəlirdə tanınan gəlir və ya xərc maddəsinə aid olan maddələr istisna olmaqla, məcmu gəlir hesabatında tanınır.

Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasında qüvvədə olan vergi dərəcələri və qanunlar əsasında hesablanır.

Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergi və maliyyə uçotu üzrə balans dəyərləri və Şirkətin istifadə edilməmiş vergi zərərləri arasında yaranan müvəqqəti fərqlər əsasında tanınır. Təxirə salınmış vergi öhdəliklərinin yerinə yetirildiyi və ya aktivlərin reallaşdırıldığı dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi həmçinin kapitalın tərkibində göstərildiyi halda, birbaşa kapitala daxil edilən əlaqəli maddələr istisna olmaqla, məcmu gəlir hesabatına daxil edilir.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hər bir hesabat dövründə nəzərdən keçirilir və qiymətləndirmə ehtiyatının xalis balans dəyəri cari və ya gələcək vergi mənfəəti əsasında bərpa edilməyən yüksək məbləğə bərabər olan təxirə salınmış vergi aktivinə qarşı yönəlir.

## 5. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2014-cü il | 31 dekabr 2013-cü il |
|---|---|---|
| Banklarda yerli valyuta ilə olan cari hesablar | **44,106** | 125,880 |
| Banklarda xarici valyuta ilə olan cari hesablar | **28,159** | 25,511 |
| Nağd pul vəsaitləri | **459** | 459 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **72,724** | 151,850 |

Banklarda xarici valyutada olan cari hesabların qalığına yalnız ssudaların əsas məbləğini və faiz xərclərini ödəmək üçün bloklaşdırılmış hesabda olan 28,157 AZN daxildir (2013-cü ildə 25,468AZN).

Yuxarıda açıqlanan 31 dekabr 2014 və 2013-cü il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinin məbləğləri pul vəsaitlərinin hərəkəti haqqında hesabata daxil edilmişdir.

## 6. AVANSLAR, QABAQCADAN ÖDƏNİŞLƏR VƏ DİGƏR CARİ AKTİVLƏR

Avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2014-ü il | 31 dekabr 2013-ü il |
|---|---|---|
| Müştərilərdən alınacaq debitor borcları | **187,776** | 242,338 |
| Vaxtı keçmiş debitor borcları üzrə ehtiyyat | **(1,250)** | - |
| Vaxtı keçmiş debitor borcları-xalis | **186,526** | 242,338 |
| Yığılmış mənfəət | **49,254** | 42,972 |
| İşçilərə verilmiş avanslar | **29,929** | 21,000 |
| Qabaqcadan ödənilmiş xərclər | **2,179** | 12,158 |
| Digər debitor borcları | **5,053** | 5,916 |
| **Cəmi avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər** | **272,941** | 324,384 |

## 7. MALİYYƏ LİZİNQİ ÜZRƏ XALİS İNVESTİSİYA

| | 31 dekabr 2014-cü il | | | |
|---|---|---|---|---|
| | **Bir ildən gec olmayan** | **Bir ildən beş ilədək olanlar** | **Beş ildən gec (çox) olanlar** | **Cəmi** |
| Lizinq üzrə debitor borcu | 4,646,954 | 4,414,776 | - | 9,061,730 |
| Minimum lizinq ödənişləri | 4,646,954 | 4,414,776 | - | 9,061,730 |
| Gələcək dövrlər üçün faiz gəliri | (1,088,23) | (636,952) | - | (1,725,190) |
| **Minimum lizinq ödənişlərinin diskontlaşdırılmış dəyəri** | 3,558,716 | 3,777,824 | - | 7,336,540 |

## 7. MALİYYƏ LİZİNQİ ÜZRƏ XALİS İNVESTİSİYA (DAVAMI)

| | 31 dekabr 2013-cü il | | | |
|---|---|---|---|---|
| | **Bir ildən gec olmayan** | **Bir ildən beş ilədək olanlar** | **Beş ildən gec (çox) olanlar** | **Cəmi** |
| Lizinq üzrə debitor borcu | 4,023,939 | 3,236,543 | - | 7,260,482 |
| Minimum lizinq ödənişləri | 4,023,939 | 3,236,543 | - | 7,260,482 |
| Gələcək dövrlər üçün faiz gəliri | (847,696) | (434,468) | - | (1,282,164) |
| Minimum lizinq ödənişlərinin diskontlaşdırılmış dəyəri | 3,176,243 | 2,802,075 | - | 5,978,318 |

## 8. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıq aşağıdakılardan ibarətdir:

| | **Kompyuter və ofis avadanlığı** | **Nəqliyyat vasitələri** | **Mebel** | **Digər əsas vəsaitlər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **31 dekabr 2012-ci il tarixinə ilkin dəyəri** | 43,775 | 39,814 | 73,316 | 32,881 | 189,786 |
| Daxilolmalar | 1,571 | - | 364 | - | 1,935 |
| **31 dekabr 2013-cü il tarixinə ilkin dəyəri** | 45,346 | 39,814 | 73,680 | 32,881 | 191,721 |
| **Daxilolmalar** | **1,878** | **42,800** | **-** | **-** | **44,678** |
| **31 dekabr 2014-cü il tarixinə ilkin dəyəri** | **47,224** | **82,614** | **73,680** | **32,881** | **236,399** |
| **31 dekabr 2012-ci il tarixinə yığılmış amortizasiya** | 22,599 | 22,237 | 17,980 | 14,205 | 77,021 |
| İl üzrə amortizasiya xərci | 8,863 | 7,963 | 5,556 | 3,735 | 26,117 |
| **31 dekabr 2013-cü il tarixinə yığılmış amortizasiya** | 31,462 | 30,200 | 23,536 | 17,940 | 103,138 |
| **İl üzrə amortizasiya xərci** | **9,337** | **13,670** | **5,014** | **2,988** | **31,009** |
| **31 dekabr 2014-cü il tarixinə yığılmış amortizasiya** | **40,799** | **43,870** | **28,550** | **20,928** | **134,147** |
| **31 dekabr 2014-cü il tarixinə xalis balans dəyəri** | **6,425** | **38,744** | **45,130** | **11,953** | **102,252** |
| 31 dekabr 2013-cü il tarixinə xalis balans dəyəri | 13,884 | 9,614 | 50,144 | 14,941 | 88,583 |

## 8. ƏMLAK VƏ AVADANLIQLAR (DAVAMI)

Rəhbərlik hesab edir ki, 31 dekabr 2014-cü il tarixinə mülkiyyət, maşın və avadanlıqlar dəyərsizləşməmişdir (2013: Sıfır).

## 9. QEYRI-MADDİ AKTİVLƏR

Maliyyə vəziyyəti haqqında hesabatda tanınan qeyri-maddi aktivlər kompüter proqram təminatına aiddirlər və aşağıdakı kimi təhlil edilə bilərlər:

| | 31 Dekabr 2014-cü il | 31 Dekabr 2013-cü il |
|---|---|---|
| **Məcmuu balans dəyəri** | | |
| 31 dekabr tarixinə ilkin dəyər | **6,950** | **-** |
| **Yığılmış köhnəlmə** | | |
| 1 yanvar tarixinə qalıq | **-** | **-** |
| Il üzrə xərc | **1,737** | **-** |
| 31 dekabr tarixinə qalıq | **1,737** | **-** |
| **31 dekabr tarixində balans dəyəri** | **5,213** | **-** |

## 10. TƏMİNATLI VƏ DİGƏR BANK KREDİTLƏRİ

Təminatlı kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2014-cü il | | 31 dekabr 2013-cü il | |
|---|---|---|---|---|
| | **İllik faiz dərəcəsi** | **Məbləğ** | **İllik faiz dərəcəsi** | **Məbləğ** |
| MCB Bank Ltd. Bahrain | **3 ay üzrə LIBOR + 4%** | **1,568,800** | 3 ay üzrə LIBOR + 4% | 1,569,000 |
| MCB Bank Ltd. Bahrain | **3 ay üzrə LIBOR 5.25%** | **2,353,200** | 3 ay üzrə LIBOR + 4.5% | 2,353,500 |
| **Cəmi təminatlı kreditlər** | | **3,922,000** | | 3,922,500 |
| **Cari hissəsi** | | **-** | | 2,353,500 |
| **Uzunmüddətli hissəsi** | | **3,922,000** | | 1,569,000 |

Digər bank kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2014-cü il | | 31 dekabr 2013-cü il | |
|---|---|---|---|---|
| | **İllik faiz dərəcəsi** | **Məbləğ** | **İllik faiz dərəcəsi** | **Amount** |
| **Bank of Azerbaijan** | **Illik sabit 15%** | **338,865** | Illik sabit 11.5% | 877,013 |
| **Paşa Bank** | **Illik sabit 12.7%** | **985,592** | | - |
| **Ata Sığorta** | **Illik sabit 11%** | **500,000** | | - |
| **Cəmi** | | **1,824,457** | | 877,013 |
| **Cari** | | **479,742** | | 562,091 |
| **Uzunmüddətli hissəsi** | | **1,344,715** | | 314,922 |

## 10. TƏMİNATLI VƏ DİGƏR BANK KREDİTLƏRİ (DAVAMI)

Şirkət 8 noyabr 2010-cu ildə öz əsas təsisçisi olan MCB Bank Limited ilə 3 aylıq LİBOR + 4.0% illik faiz dərəcəsi olan 2,000,000 USD məbləğində kredit müqaviləsi bağlamışdır və müqavilə 1 avgust 2013-cü ildə yenilənmişdir və yenilənmiş müqaviləyə əsasən kreditin əsas məbləği müddət başa çatdıqda, yəni 7 noyabr 2016-cı ildə həyata keçiriləcək. Faiz ödənişləri kredit müddətinin başlanğıcından etibarən rüblük olaraq cədvəl əsasında həyata keçirilir. Kredit üçün Şirkətin cari aktivləri və lizinq avadanlıqları girov qoyulmuşdur.

Şirkət 6 aprel 2011-ci ildə öz əsas təsisçisi olan MCB Bank Limited ilə 3 aylıq LİBOR + 4.5% illik faiz dərəcəsi ilə və son ödəniş tarixi 6 aprel 2014-cü il olan 3,000,000 USD məbləğində kredit müqaviləsi bağlamışdır. Müqavilə 11 mart 2014-cü il tarixində yenilənmişdir. Yenilənməyə əsasən kreditin əsas məbləği müddət başa çatdıqda, yani 4 aprel 2017-cil il tarixində həyata keçiriləcək. Faiz ödənişləri kredit müddətinin başlanğıcından etibarən rüblük olaraq LIBOR + 5.25%. faiz dərəcəsi ilə cədvəl əsasında həyata keçirilir. Kredit üçün Şirkətin cari aktivləri və lizinq avadanlıqları girov qoyulmuşdur.

3 may 2012-ci il tarixdə şirkət Bank of Azərbaycan ilə 1,000,000 manatlıq illik sabit 11.5% dərəcəsi ilə kredit müqaviləsi bağlamışdır. Faizlər aylıq ödənilir. Kredit tranşlarla verilir və hər bir tranş kredit müqaviləsinə əlavə edilmiş ödəniş qrafikinə uyğun aparılır. Müqavilə 9 oktaybr 2013-cü ildə yenilənmişdir və yeni faiz dərəcəsi 15% olmuşdur.

18 sentyabr 2014-cü ildə Şirkət Paşa Bank ilə 4 tranşda 1,000,000 manatlıq müqavilə bağlamışdır. Illik faiz dərəcəsi 12.7%-dir və müqaviləyə əlavə edilmiş ödəniş qrafikinə uyğun aparılır. Kreditin bitmə tarixi 28 noyabr 2017-ci ildir. Faiz ödənişləri kredit müddətinin başlanğıcından etibarən rüblük olaraq ödənilir.

1 iyul 2014-cü ildə Şirkət Ata Sığorta üçün nominal dəyəri 500,000 AZN olan 500 ədəd istiqraz buraxdı. Istiqraz üzrə illik nominal faiz dərəcəsi 11%-dir. Istiqrazların son ödəmə tarixi 30 iyun 2017-ci ildir. Ata Sığorta istiqrazların 25%-ini onların buraxıldığı tarixdən 18 ay sonra və bir ay əvvəlcədən xəbərdarlıq ilə hər altı ay müddətində ödəmə imkanı var.

Yuxarıdakı kreditlər üçün 31 dekabr 2014 və 2013-cü il tarixlərində başa çatan illər üzrə cəmi hesablanmış faiz xərci müvafiq olaraq 333,153 AZN və 314,166 AZN məbləğində olmuşdur.

## 11. DİGƏR CARİ ÖHDƏLİKLƏR

Digər cari öhdəliklər aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2014-cü il** | **31 dekabr 2013-cü il** |
|---|---|---|
| Lizinq üzrə daxil olmuş avanslar | **33,035** | 67,394 |
| Təchizatçılara olan kreditor borcları | **64,114** | 42,389 |
| Hesablanmış xərclər | **103,085** | 64,800 |
| Digər kreditor borcları | **40,459** | - |
| **Digər cari öhdəliklərin cəmi** | **240,693** | 174,583 |

## 12. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2014-cü il tarixinə Şirkətin buraxılmış və tam ödənilmiş nizamnamə kapitalı 1,668,842 AZN məbləğində olmuşdur və hər biri 1 AZN olan 1,668,842 adi səhmdən ibarətdir (31 dekabr 2013-cü ildə: 1,668,842 adi səhmdən 1,668,842 AZN məbləğində). Hər bir səhm səhmdara bir səsvermə hüququ verir.

## 13. ŞƏRTİ ÖHDƏLİKLƏR, TƏƏHHÜDLƏR VƏ ƏMƏLİYYAT XƏRCLƏRİ

### Kapital xərci təəhhüdləri

31 dekabr 2014 və 2013-cü il tarixlərinə Şirkətin əmlak və avadanlıqları və ya digər sahə ilə əlaqəli heç bir əhəmiyyətli kapital xərci təəhhüdləri olmamışdır.

### Hüquqi-prosessual hallar

Vaxtaşırı və normal biznes tsiklində Şirkət əleyhinə iddialar qəbul edilə bilər. Onların öz qiymətləndirmələri və daxili və xarici peşəkar məsləhətlər əsasında Şirkətin rəhbərliyi iddialar əsasında heç bir maddi zərərin olmadığını və uyğun olaraq hazırkı maliyyə hesabatlarında buna görə ehtiyat yaradılmasına ehtiyac olmadığını hesab edir.

### Digər təəhhüdlər

31 dekabr 2014-cü il tarixdə şirkətin digər təəhhüdlər sıfır idi. (2013: sıfır).

### Biznes mühiti

Şirkətin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Bazar iqtisadiyyatlı yeni ölkə kimi hazırda Azərbaycanın daha yetkin bazar iqtisadiyyatına xas olan yaxşı inkişaf etmiş biznes və tənzimləyici infrastrukturu yoxdur.

Azərbaycan Respublikasında iqtisadi şərait inkişaf etsə də, iqtisadi vəziyyətdə yeni yaranmış bazar iqtisadiyyatına səciyyəvi xüsusiyyətlər müşahidə olunmaqdadır. Bunlara milli valyutanın Azərbaycan Respublikasından xaricdə əksər ölkələrdə sərbəst dönərli valyuta hesab edilməməsi və bununla məhdudlaşmayan bu kimi xüsusiyyətlər daxildir. Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi çox vaxtlar müxtəlif şərhlərə və dəyişikliklərə məruz qalır.

Azərbaycan Respublikasında iqtisadi sabitliyin gələcək perspektivləri hökümətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən, eləcə də vergi, hüquqi, normativ və siyasi hadisələrin gedişatından xeyli dərəcədə asılıdır. Rəhbərlik Şirkətin əməliyyatlarına təsir göstərə biləcək bütün iqtisadi tendensiyaları, eləcə də onların Şirkətin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq iqtidarında deyildir.

Bu qeyri-müəyyənliklərin gələcəkdə aydınlaşdırılmasından yarana biləcək hər hansı düzəlişlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilməmişdir. Belə düzəlişlər (əgər varsa), məlum olduğu və təxmin edilə bildiyi dövrdə hesabatda göstəriləcəkdir.

## 13. ŞƏRTİ ÖHDƏLİKLƏR, TƏƏHHÜDLƏR VƏ ƏMƏLIYYAT XƏRCLƏRI

**Qanunverici baza**

Azərbaycanda siyasi hadisələr, o cümlədən mövcud və gələcək qanuvericilik və vergi qanunvericiliyinin tətbiqi Şirkətin maliyyə vəziyyətinə təsir göstərməyə davam edəcək. Şirkət özünün fəaliyyətinə aid olan bu şərti öhdəliklərin Azərbaycan Respublikasında oxşar müəssisələrin şərti öhdəliklərindən daha əhəmiyyətli olduğunu hesab etmir.

Azərbaycan Respublikasında vergiqoyma, valyuta əməliyyatları və xarici kreditə lisenziyanın verilməsinə dair qanunvericilik və normalar daimi inkişaf edir, çünki mərkəzi hakimiyyət orqanı iqtisadiyyətə istiqamətlənmiş transformasiyanı idarə edir. Həmçinin, müxtəlif qanunvericilik və normalar həmişə aydın ifadə edilmir və onların şərhləri vergi inspektorları, Mərkəzi Bank məmurları və Maliyyə Nazirliyindən asılıdır.

Şirkət hesab edir ki, o mövcud olan bütün vergiləri ödəyib və hesablayıb. Vergilər üçün ehtiyatla bağlı təcrübə aydın olmadığı halda Şirkətin siyasəti zərərin mümkün hesab edilən və məbləğin məntiqi olaraq müəyyən edilə bilən uçot dövründə şərti öhdəliklər üzrə hesablaşmanın aparılmalmasından ibarətdir.

Azərbaycanın vergi və qanun sistemi ilə bağlı qeyri-müəyyənliklərə görə vergilərin, cərimələrin və qiymətləndirilmiş faizin yekun məbləği (mövcuddursa) həmin tarixə xərclənmiş və hesablanmış məbləğdən artıq ola bilər.

## 14. ƏMƏLİYYAT XƏRCLƏRİ

| | **31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə** | **31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə** |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | **357,837** | 351,187 |
| Sosial təminat xərcləri | **78,595** | 77,261 |
| İşçi heyətinin tibbi sığortası | **7,519** | 7,691 |
| **Cəmi əməliyyat xərcləri** | **443,951** | 436,139 |

## 15. İNZİBATİ XƏRCLƏR

| | **31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə** | **31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə** |
|---|---|---|
| Ofisin icarəsi | **97,348** | 88,044 |
| Köhnəlmə | **31,009** | 26,117 |
| Mühafizə | **27,600** | 27,600 |
| Bank xərcləri | **24,335** | 57,951 |
| Peşəkar xidmət haqları | **13,040** | 11,451 |
| Audit xidməti | **10,620** | 9,000 |
| Kommunikasiya | **8,534** | 9,180 |
| Nəqliyyat vasitələrinin günlük xərcləri | **8,047** | 5,508 |
| Səyahət xərcləri | **6,036** | 1,025 |
| Ofis xərcləri | **4,914** | 8,050 |
| Kommunal | **4,905** | 5,643 |
| Nəqliyyat vasitələrinin sığortası | **2,438** | 1,043 |
| Dövlət rüsumları | **1,749** | 1,026 |
| Amortizasiya (qeyri-maddi aktivlər) | **1,737** | - |
| Digər xərclər | **1,647** | 1,552 |
| Mənfəət vergisindən başqa digər vergilər | **677** | 735 |
| Təmir və saxlanma xərcləri | **287** | 707 |
| Marketing və reklam | **-** | 500 |
| **Cəmi inzibati xərclər** | **244,923** | 255,132 |

## 16. MƏNFƏƏT VERGİSİ

31 dekabr 2014 və 2013-cü ildə başa çatan illər üzrə Azərbaycanda hüquqi şəxslərin mənfəət vergisi dərəcəsi 20% olmuşdur. Vergi dərəcəsi növbəti maliyyə ili üçün də dəyişməz qalacaq. Təxirə salınmış vergi aktivləri maliyyə hesabatlılığı və vergi məqsədləri üçün aktiv və öhdəliklərin balans dəyəri arasında olan müvəqqəti fərqlərin xalis vergi effektinə təsir edir. 31 dekabr 2014 və 2013-cü il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2014-cü il | 31 dekabr 2013-cü il |
|---|---|---|
| Vergi uçotu üzrə 2010-cu ilin zərəri | **477,384** | 477,384 |
| Vergi uçotu üzrə 2011-ci ilin zərəri | **141,573** | 141,573 |
| 2012-ci ildə istifadə olunmuş vergi zərərləri | **(129,753)** | (129,753) |
| 2013-cü ildə istifadə olunmuş vergi zərərləri | **(387,667)** | (387,667) |
| 2014-cü ildə istifadə olunmuş vergi zərərləri | **(101,537)** | - |
| **Cəmi istifadə edilməmiş vergi (mənfəəti)/zərərləri** | **-** | 101,537 |
| Müvəqqəti fərq | **6,142** | (9,644) |
| **Cəmi vergi tutulan müvəqqəti fərqlər** | **6,142** | (9,644) |
| Təxirə salınmış çıxıla bilən müvəqqəti fərqlər | **6,142** | 91,893 |
| Müvafiq vergi dərəcəsi ilə təxirə salınmış vergi aktivi (20%) | **1,228** | 18,378 |
| **Təxirə salınmış xalis vergi aktivi** | **1,228** | 18,378 |

31 dekabr 2014 və 2013-cü il tarixlərinə vergi xərci və mühasibat uçotu mənfəəti arasındakı əlaqə aşağıdakı kimi açıqlanır:

| | 31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə | 31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə |
|---|---|---|
| **Vergidən əvvəlki mənfəət** | **273,939** | 380,986 |
| Müvafiq vergi dərəcəsi ilə vergi (20%) | **(54,788)** | (76,198) |
| Daimi fərqlərin vergi təsiri | **(538)** | (500) |
| Müvəqqəti fərqlərin vergi təsiri | **(3,157)** | - |
| Tanınmayan təxirə salınmış vergi aktivləri | **-** | 1,088 |
| **Mənfəət vergisi üzrə gəlir** | **(58,484)** | (75,610) |
| Cari mənfəət vergisi xərci | **(40,459)** | - |
| Təxirə salınmış mənfəət vergisi üzrə hərəkət | **(17,150)** | (75,610) |
| **Mənfəət vergisi üzrə xərc** | **(57,609)** | (75,610) |

## 16. MƏNFƏƏT VERGİSİ (DAVAMI)

31 dekabr 2014 və 2013-cü il tarixində başa çatan illər üzrə təxirə salınmış mənfəət vergisi aktivinin hərəkəti aşağıdakı kimidir:

| | 31 dekabr 2014-cü il | 31 dekabr 2013-cü il |
|---|---|---|
| **1 anvar 2014-cü il tarixinə təxirə salınmış vergi üzrə aktivlər** | **18,378** | 93,988 |
| Təxirə salınmış vergi aktivlərində dəyişikliyin məcmu gəlir hesabatına aid edilən hissəsi | **(17,150)** | (75,610) |
| **31 dekabr 2014-cü il tarixinə təxirə salınmış vergi üzrə aktivlər** | **1,228** | 18,378 |

## 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi Şirkətin məruz qaldığı maliyyə (kredit, bazar, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi riskləri əhatə edir. Maliyyə risklərin idarə edilməsində əsas məqsəd risk limitlərin müəyyən olunması və sonradan o limitlərə riayət olunmasına nəzarət etməkdir. Əməliyyat və hüquqi risklərin idarə edilməsi daxili qaydalar və prosedurların qüvvədə olmasını təmin etməklə həmin risklərin azaldılmasına xidmət edir.

### Kredit riski

Kredit riski qarşı tərəf Şirkətə qarşı olan öhdəliyini ödəyə bilmədiyi zaman yaranan riskdir. Şirkət bu maliyyə risklərinə müxtəlif maliyyə alətləri vasitəsilə məruz qalır, məsələn: müştərilərə verilmiş kreditlər, debitor borcları,depozitlər və s.

Şirkət o zaman kredit riskinə məruz qalır ki, maliyyə alətinə sahib olan bir tərəf öhdəliyi yerinə yetirmir və nəticədə bu, digər tərəfə maliyyə itkisinə səbəb olur. Şirkətin lizinq fəaliyyəti və digər əməliyyatlar onun kredit riskinə məruz qaldığına səbəb olur.

Müşahidə şurası və İdarə heyəti tərəfindən təsdiq edilmiş şirkətin kredit siyasəti maliyyə lizinqin əsas prinsiplərini və qaydalarını müəyyən edir. Bu siyasət əsas göstəricilərin ölçülməsində, risklərin idarə edilməsində, gəlirliyin təmin edilməsində və işçilər üçün vəzifə təlimatı kimi xidmət edir. Lizinq portfelinin diversifikasiyasını və kredit risklərin azaldılması məqsədi ilə aşağıdakı limitlər mövcuddur:

- Biznes portfeli üzrə limitlər;
- İqtisadiyyatın sektorları üzrə limitlər; və
- Cəmləşmə limitləri

Limitlər rəhbərlik tərəfindən müəyyən edilir və ildə bir dəfə düzəldilir. Bazar mühitinin əhəmiyyətli dəyişildiyi halda limitlərə yenidən baxıla bilər. Limitlərdə dəyişiklik birinci növbədə Kredit Komitəsində müzakirə olunur, sonra isə İdarə Heyəti və Müşahidə Şurası tərəfindən təsdiq olunur.

Lizinq Əməliyyatları Departamenti mütəmadi olaraq bütün limitləri nəzarətdə saxlayır və onlardan bəzilərinə (yeganə borc alan və ya əlaqəli borc alanlar qrupunun, əlaqəli tərəflərin maksimum riski) yeni liziqin buraxılmasından əvvəl nəzarət edilir.

## 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

**Kredit riski (davamı)**

Şirkətin Kredit Siyasəti Şirkətin lizinq vermə prosesində iştirak edən hər bir qurumun səlahiyyətlərini və məsuliyyətlərini tənzimləyir və kredit verilməsinin təsdiqi, lizinqlərə nəzarət qaydaları, lizinq vermə prosedurları və s. üzrə limitləri müəyyən edir.

Şirkətin kredit riskinə maksimal dərəcədə məruz qaldığı məbləğlər əsasən maliyyə aktivlərin balans dəyərlərində əks olunub, Şirkətin məruz qalacagı potensial riskləri azaltmaq üçün aktivlərin öhdəliklər ilə əvəzləşdirmə effekti əhəmiyyətli deyil.

Kredit Komitəsi ("KK") Şirkət içində İdarə Heyətinə hesabat verən kollektiv orqandır. KK-nın ümumi funksiyası lizinq əməliyyatlarını müəyyən edilmiş strateji və biznes planı istiqamətdə idarə etmək və onlara nəzarət etmək.

Kredit Komitəsi əməliyyatların və lizinq müqavilələrin Kredit siyasətinə uyğun şəkildə həyata keçirilməsinə nəzarət edir.

31 dekabr 2014 – cü il və 31 dekabr 2013-cü il tarixdə Şirkətin vaxtı keçmiş və ya dəyərsizləşmiş əhəmiyyətli debitor borcları yoxdur.

Şirkətin məruz qalacağı kredit riskinin maksimum məbləği maliyyə aktivlərinin hesabat tarixində tanınmış balans dəyəri ilə məhdudlaşır:

| | 31 dekabr 2014 | 31 dekabr 2013 |
|---|---|---|
| Bank hesablarındakı pul vəsaitləri | **72,265** | 151,391 |
| Debitor borcları | **235,780** | 285,310 |
| Maliyyə lizinqlərində xalis investisiyalar | **7,336,540** | 5,978,318 |
| Xalis balans dəyəri | **7,644,585** | 6,415,019 |

Şirkət müştərilərin krediti ödəmə qabiliyyətlərini qiymətləndirməyə və hesablarla bağlı potensial problemlərini aşkar etməyə imkan verən effektiv icarə haqqının monitorinqi sisteminə malikdir. Potensial icarə və hissə-hissə ödənişə icazə rəhbərliyin verdiyi qərar səviyyəsində təmin edilir və məntiqli şəkildə nəzərdə tutula bilən icarə və hissə-hissə ödəniş üzrə potensial itkilərin təmin edilməsində adekvat vasitədir. Banklarda nağd pulla bağlı kredit riski cüzi hesab edilir, belə ki, tərəfdaşlar yüksək keyfiyyətli xarici kredit reytinqlərinə malik nüfuzlu banklardırlar.

Yüklənməmiş digər debitor borclarının bəzilərinin müddəti hesabat tarixinədək uzadılır. Vaxtı uzadılmış, lakin yüklənməmiş maliyyə aktivləri aşağıdakı kimi göstərilə bilər:

| | 31 dekabr 2014 | 31 dekabr 2013 |
|---|---|---|
| Debitor borcları | **187,776** | 242,338 |

Debitor borcları ilə bağlı olaraq Şirkət hər hansı bir fərdi tərəf və ya eyni xüsusiyyətlərə malik olan qrup tərəfindən əhəmiyyətli kredit riskinə məruz qalmayıb. Ümisiz borclarla bağlı tarixi məlumatlara əsasən Rəhbərlik müştərilərlə bağlı debitor borclarının kredit kefiyyətinin yaxşı olduğunu hesab edir.

## 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

**Valyuta riski**

Valyuta riski xarici valyuta məzənnəsinin dəyişməsi nəticəsində maliyyə aktivinin dəyərinin dəyişməsi riskidir. Valyuta riski əsasən xarici alıcı və satıcılarla əməliyyatlar nəticəsində yaranan debitor və kreditor borclarından əmələ gəlir.

Aşağıdakı cədvəl Azərbaycan manatı/ABŞ dolları mübadilə məzənnəsində məntiqi ağlabatan dəyişikliklərə olan həssaslıqları təqdim edir. Bu mübadilə məzənnəsində ±5% dəyişiklik ehtimal edilir və həssaslıq analizi bütün digər göstəricilər sabit qalmaqla Şirkətin hər hesabat tarixində saxlanılan valyuta məzənnəsi maliyyə alətinə əsaslanır:

| | **31 Dekabr 2014 İl üzrə mənfəətə təsir** | **31 Dekabr 2013 İl üzrə mənfəətə təsir** |
|---|---|---|
| ABŞ Dolları 5% güclənməsi | **(198,502)** | (196,483) |
| ABŞ Dolları 5% zəiflənməsi | **198,502** | 196,483 |

Aşağıdakı cədvəllər 31 dekabr 2014 və 2013-cü il tarixlərinə Şirkətin xarici valyuta məzənnəsinə məruz qalma riskini göstərir. Balans dəyərində cədvələ daxil olan Şirkətin maliyyə alətləri valyutaya uyğun siniflərə bölünmüşdür:

| | | **31 dekabr 2014-cü il** | |
|---|---|---|---|
| | **AZN** | **ABŞ dolları** | **Cəmi** |
| **Maliyyə aktivləri:** | | | |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | **44,565** | **28,159** | **72,724** |
| **Debitor borcları** | **235,780** | **-** | **235,780** |
| **Maliyyə lizinqi üzrə xalis investisiya** | **7,336,540** | **-** | **7,336,540** |
| **Cəmi maliyyə aktivləri** | **7,616,885** | **28,159** | **7,645,044** |
| **Maliyyə öhdəlikləri:** | | | |
| **Təminatlı kreditlər** | **-** | **3,922,000** | **3,922,000** |
| **Digər bank kreditləri** | **1,824,457** | **-** | **1,824,457** |
| **Digər cari öhdəliklər** | **164,502** | **76,191** | **240,693** |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,988,959** | **3,998,191** | **5,987,150** |
| **XALİS MÖVQE** | **5,627,926** | **(3,970,032)** | **1,657,894** |

## 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

**Valyuta riski (davamı)**

| | 31 dekabr 2013-cü il | | |
|---|---|---|---|
| | **AZN** | **ABŞ dolları** | **Cəmi** |
| Maliyyə aktivləri: | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 126,339 | 25,511 | 151,850 |
| Debitor borcları | 285,310 | - | 285,310 |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 5,978,318 | - | 5,978,318 |
| Cəmi maliyyə aktivləri | 6,389,977 | 25,511 | 6,415,478 |
| Maliyyə öhdəlikləri: | | | |
| Təminatlı kreditlər | - | 3,922,500 | 3,922,500 |
| Digər bank kreditləri | 877,013 | - | 877,013 |
| Digər cari öhdəliklər | 141,919 | 32,664 | 174,583 |
| Cəmi maliyyə öhdəlikləri | 1,018,932 | 3,955,164 | 4,974,096 |
| XALİS MÖVQE | 5,371,045 | (3,929,653) | 1,441,382 |

**Faiz dərəcəsi riski**

Faiz dərəcəsi riski maliyyə alətinin gələcək pul vəsaitlərinin hərəkətinin bazar faiz dərəcəsində dəyişikliklərə görə tərəddüd etməsi riskdir. Ədalətli dəyər ilə bağlı faiz dərəcəsi riski maliyyə alətinin dəyərinin bazar faiz dərəcəsində dəyişikliklərə görə tərəddüd etməsi riskidir. Lizinqlər ümumilikdə lizinqin müddəti üzrə müəyyən edilmiş faiz dərəcəsi ilə borcların əksəriyyəti isə dəyişən faiz dərəcəsi ilə verilir. Aşağıdakı cədvəl dəyişən dərəcə ilə kreditlərin bütün digər göstəricilər sabit qalmaqla faiz dərəcələrində məntiqi mümkün dəyişikliyə (±1%) həssaslığını göstərir.

| | **31 Dekabr 2014 İl üzrə mənfəətə təsir** | **31 Dekabr 2013 İl üzrə mənfəətə təsir** |
|---|---|---|
| Faiz dərəcəsi +1% | **(39,220)** | (39,225) |
| Faiz dərəcəsi -1% | **39,220** | 39,225 |

Şirkət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. İdarə Heyəti faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Hər hansı hedcinq vasitəsi mövcud olmadıqda, Şirkət adətən faiz dərəcələri üzrə mövqelərin bir-birinə uyğun olmasına çalışır. Hazırda Şirkət faiz dərəcəsi riskini mümkün olduğu dərəcədə ödəmə müddəti və/və ya faiz dərəcələrinə yenidən baxılması mövqelərini qarşılıqlı uyğunlaşdırmaqla tənzimləyir. Bundan əlavə, Şirkətın aylıq faiz marjaları lazım olduqda onun aktivlərinin faiz dərəcələrinə yenidən baxılması məqsədilə, davamlı olaraq nəzərdən keçirilir.

## 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

### Faiz dərəcəsi riski (davamı)

Aşağıdakı cədvəldə Şirkətin məruz qaldığı faiz dərəcəsi riski üzrə ümumi təhlil əks olunur. Bu cədvəldə Şirkətin cəmi maliyyə aktiv və öhdəlikləri müqavilə üzrə faiz dərəcələrinin dəyişməsi tarixlərinə və ya ödəmə tarixlərinə görə (bunlardan hansı daha tez olarsa) təsnifləşdirilir:

| | 31 dekabr 2014-cü il | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **1 aya qədər** | **1 aydan 3 aya qədər** | **3 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **5 ildən çox** | **Faiz yarat-mayan** | **Cəmi** |
| **Maliyyə aktivləri:** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | - | 72,724 | 72,724 |
| Digər debitor borcları | - | - | - | - | - | 235,780 | 235,780 |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 310,560 | 640,671 | 2,607,485 | 3,777,824 | - | - | 7,336,540 |
| **Cəmi maliyyə aktivləri** | **310,560** | **640,671** | **2,607,485** | **3,777,824** | **-** | **308,504** | **7,645,044** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | | |
| Təminatlı kreditlər | - | - | - | 3,922,000 | - | - | 3,922,000 |
| Dıgər bank kreditləri | 48,688 | 91,239 | 339,815 | 1,344,715 | - | - | 1,824,457 |
| Digər cari öhdəliklər | - | - | - | - | - | 240,693 | 240,693 |
| **Cəmi maliyyə öhdəlikləri** | **48,688** | **91,239** | **339,815** | **5,266,715** | **-** | **240,693** | **5,987,150** |
| **Faiz dərəcəsi riski üzrə xalis mövqe** | **261,872** | **549,432** | **2,267,670** | **(1,488,891)** | **-** | **67,811** | **1,657,894** |

| | 31 dekabr 2013-cü il | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **1 aya qədər** | **1 aydan 3 aya qədər** | **3 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **5 ildən çox** | **Faiz yarat-Mayan** | **Cəmi** |
| Maliyyə aktivləri: | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | - | 151,850 | 151,850 |
| Digər debitor borcları | - | - | - | - | - | 285,310 | 285,310 |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 328,862 | 632,082 | 2,215,300 | 2,802,075 | - | - | 5,978,319 |
| Cəmi maliyyə aktivləri | 328,862 | 632,082 | 2,215,300 | 2,802,075 | - | 437,160 | 6,415,479 |
| Maliyyə öhdəlikləri: | | | | | | | |
| Təminatlı kreditlər | - | - | 2,353,500 | 1,569,000 | - | - | 3,922,500 |
| Dıgər bank kreditləri | 122,808 | 43,489 | 395,794 | 314,922 | - | - | 877,013 |
| Digər cari öhdəliklər | - | - | - | - | - | 174,583 | 174,583 |
| Cəmi maliyyə öhdəlikləri | 122,808 | 43,489 | 2,749,294 | 1,883,922 | - | 174,583 | 4,974,096 |
| Faiz dərəcəsi riski üzrə xalis mövqe | 206,054 | 588,593 | (533,994) | 918,153 | - | 262,577 | 1,441,383 |

## 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

### Likvidlik riski

Likvidlik riski Şirkətin öhdəliklərini ödəmək üçün lazımi vəsaitə malik olmamasını əks etdirir. Şirkət likvidliyini təmin etmək üçün nağd vəsaitlərin effektiv idarə edilməsi və planlaşdırılması siyasəti aparır və yeni tələblər üçün müvafiq ölçü götürməyi tətbiq edir.

Aşağıdakı cədvəl maliyyə vəziyyəti haqqında hesabat tarixində müqavilə əsasında qalan bitmə müddətlərinə görə qeyri-törəmə maliyyə öhdəlikləri üzrə Şirkət tərəfindən ödənilməli pul vəsaitlərini göstərir. Cədvəldə açıqlanan məbləğlər müqavilə üzrə diskontlaşdırılmamış pul vəsaitidir. Buna görə də, onlar maliyyə vəziyyəti haqqında hesabatda diskontlaşdırılmış pul vəsaitləri ilə uyğunlaşmır. 7 №-li BMHS bu cür uyğunlaşmanı tələb etmir.

| | 31 dekabr 2014-cü il | | | | | |
|---|---|---|---|---|---|---|
| | **1 aya qədər** | **1-3 ay** | **3-12 ay** | **1-5 il** | **5 ildən çox** | **Cəmi** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | |
| **Təminatlı kreditlər** | 32,962 | 16,967 | 161,783 | 4,214,534 | - | 4,426,246 |
| **Digər bank kreditləri** | 76,444 | 118,377 | 485,603 | 1,512,378 | - | 2,192,802 |
| **Digər cari öhdəliklər** | 141,878 | 66,297 | 32,518 | - | - | 240,693 |
| **Cəmi diskontlaşdırılmamış maliyyə öhdəlikləri** | 251,284 | 201,641 | 679,904 | 7,726,912 | | 6,859,741 |

| | 31 dekabr 2013-cü il | | | | | |
|---|---|---|---|---|---|---|
| | **1 aya qədər** | **1-3 ay** | **3-12 ay** | **1-5 il** | **5 ildən çox** | **Cəmi** |
| Maliyyə öhdəlikləri: | | | | | | |
| Təminatlı kreditlər | 16,986 | 32,835 | 2,503,678 | 1,693,557 | - | 4,247,056 |
| Digər bank kreditləri | 122,808 | 66,998 | 436,468 | 346,232 | - | 972,506 |
| Digər cari öhdəliklər | 9,825 | 64,800 | 32,564 | - | - | 107,189 |
| Cəmi diskontlaşdırılmamış maliyyə öhdəlikləri | 149,619 | 164,633 | 2,972,710 | 2,039,789 | - | 5,326,751 |

### Maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri

Maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyəri ölçülmüş aktivlər və öhdəliklər ədalətli dəyər iyerarxiyasının üç səviyyəsi üzrə qruplaşdırılır. Bu qruplaşma ədalətli dəyərin ölçülməsində istifadə olunmuş əhəmiyyətli giriş məlumatlarının ən aşağı səviyyəsi əsasında müəyyən edilir:

- səviyyə 1: oxşar aktivlər və ya öhdəliklər üzrə aktiv bazarlarda kotirovka (düzəliş edilməmiş)
- səviyyə 2: aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər kimi) və ya dolayı (yəni qiymətlərdən əmələ gələn) olaraq müşahidə oluna bilən səviyyə 1-ə daxil olan kotirovkadan başqa giriş məlumatları
- səviyyə 3: müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üzrə giriş məlumatları(müşahidə olunmayan).

Qeyri-maliyyə alətləri ədalətli dəyərlə uçota alınmır.

## 18. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Əlaqəli tərəflərlə hər bir mümkün münasibəti nəzərə alaraq, sadəcə hüquqi formaya deyil, münasibətin mahiyyətinə əhəmiyyət verilir. 31 dekabr 2014 və 2013-cü il tarixlərinə Şirkətin əlaqəli tərəflərlə aşağıdakı qalıqları olmuşdur:

| | | 31 dekabr 2014-cü il | | 31 dekabr 2013-cü il | |
|---|---|---|---|---|---|
| | | Əlaqəli tərəflərlə qalıqlar | Maliyyə hesabatlarına əsasən cəmi | Əlaqəli tərəflərlə qalıqlar | Maliyyə hesabatlarına əsasən cəmi |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | | **28,157** | **72,724** | 25,468 | 151,850 |
| | Təsisçi şirkət | **28,157** | | 25,468 | |
| **Avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər** | | **28,163** | **272,941** | 21,000 | 324,384 |
| | Rəhbərlik | **28,163** | | 21,000 | |
| **Maliyyə lizinqi üzrə xalis investisiya** | | **63,908** | **7,336,540** | 83,137 | 5,978,319 |
| | Rəhbərlik | **63,908** | | 83,137 | |
| **Təminatlı kreditlər** | | **3,922,000** | **3,922,000** | 3,922,500 | 3,922,500 |
| | Səhmdarlar | **3,922,000** | | 3,922,500 | |
| **Digər cari öhdəliklər** | | **76,191** | **240,693** | 66,298 | 174,583 |
| | Səhmdarlar | **43,673** | | 33,780 | |
| | Adamjee Sığorta | **32,518** | | 32,518 | |

31 dekabr 2014 və 2013-cü il tarixlərində başa çatan illər üzrə Şirkətin əlaqəli tərəflərlə aşağıdakı əməliyyatları olmuşdur:

| | | 31 dekabr 2014-cü il tarixində başa çatan il üzrə | | 31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə | |
|---|---|---|---|---|---|
| | | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatlarına əsasən cəmi | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatlarına əsasən cəmi |
| **Maliyyə lizinqi üzrə faiz gəliri** | | **7,465** | **1,178,099** | 9,271 | 917,372 |
| | Rəhbərlik | **7,465** | | 9,271 | |
| **Faiz xərci** | | **(215,278)** | **(333,153)** | (202,171) | (257,567) |
| | Səhmdarlar | **(215,278)** | | (202,171) | |
| **Əməliyyat xərcləri** | | **(226,514)** | **(449,987)** | (227,432) | (409,729) |
| | Rəhbərlik | **(226,514)** | | (227,432) | |

## 19. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR – DÜZƏLİŞ EDILMƏYƏN HADISƏLƏR

İdarə Heyəti 31 deakabr 2014-cü il tarixində bitən il üçün hər bir səhm üzrə 0.04 AZN olmaqla cəmi 73,553 AZN (2013: sıfır) yekun nağd dividend elan etmişdir, lakin bu dividendlər qarşıdakı İllik Ümumi Yığıncaqda üzvlərin təsdiq edilməsindən sonra ödəniləcək.